Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Milli Azərbaycan Tarixi Muzeyi

# AZƏRBAYCANIN MUSİQİ ALƏTLƏRİ XƏZİNƏSİ

K A T A L O Q

Bakı – 2024

***Milli Azərbaycan Tarixi Muzeyinin***
***Elmi Şurasının qərarı ilə nəşr olunur***

***Elmi redaktor:*** Akademik Nailə Vəlixanlı

***Mətnin müəllifi:*** Tarix üzrə fəlsəfə doktoru, dosent Gülzadə Abdulova

***Tərtibatçı:*** elmi işçi Aygün Quliyeva

Kataloqa Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya, Hədiyyələr və Xatirə əşyaları, Tarixə köməkçi fənn materialları, Neqativ fondlarında toplanmış musiqi alətləri və onlarla bağlı fotoneqativlər, markalar toplanmışdır. Kataloqun hazırlanmasında göstərdikləri köməyə görə HXƏF müdiri Rəna Səfərovaya, fondun əməkdaşı Aysel Əliyevaya, TKFMF-nun müdiri t.ü.f.d. Sənubər Qasımovaya, mütəxəssis Bənövşə Ələkbərova, NF-nın müdiri Afət Kərimovaya minnətdarlığımızı bildiririk.

# Azərbaycanın musiqi alətləri xəzinəsi



Hər bir xalqın mədəni irsi onun maddi-mənəvi dünyasının müştərək əsasları üzərində yetişir və inkişaf edir. Bu baxımdan ulularımızın yaratdığı və günümüzə miras olaraq ötürdüyü zəngin mədəniyyətlə fəxr etməyə haqqı vardır. Bir sıra tarixi-mədəni miras nümunələri xalqımızın milli kimliyini təyin edən atributlara, dünya mədəniyyətini zənginləşdirən, bu gün YUNESKO-nun xüsusi mühafizəsi altına alınan incilərə çevrilmişdir. Bu sırada musiqi mədəniyyəti özünəməxsus yer tutaraq uzun əsrlərin sınağından çıxmış, günümüzə daha təkmilləşmiş və cilalanmış şəkildə gəlib çatmışdır. Musiqi mədəniyyətinin inkişafında əsas rol oynayan musiqi alətləri maddi və mənəvi mədəniyyəti, sənətkarlıq sahələrini özündə əks etdirən zəngin mədəni mirasdır. Azərbaycan musiqi alətlərinin ən zəngin kolleksiyası Milli Azərbaycan Tarixi Muzeyində qorunur. Kolleksiya XVIII-XX əsrləri əhatə edərək, ölkənin qiymətli musiqi alətləri nümunələrini özündə cəmləşdirir. Bu kolleksiyaya Azərbaycanın musiqi korifeylərinin – Cabbar Qaryağdıoğlunun, Xan Şuşinskinin, Qədir Rüstəmovun qavalları, Seyid Mirbabayevin qavalının sağanağı, Mirzə Fərəcin, Süleyman Mansurovun, Əhməd Bakıxanovun, Niyazinin tarları, Ceyhun Hacıbəylinin tarı və kamançası, Aşıq Hüseyn Bozalqanlının sazı və başqa qiymətli musiqi alətləri daxildir. Məhz bu unikallıq muzeyin belə bir zəngin xəzinəsinin geniş ictimaiyyətə çatdırılmasını, onun haqqında mövcud məlumatların elmi dövriyyəyə daxil edilməsini aktual edir. Kataloqun hazırlanmasını aktuallaşdıran başqa bir məsələ isə digər maddi və mənəvi mədəniyyət nümunələri ilə yanaşı musiqi alətlərimizə qarşı vaxtaşırı mənimsəmələrin müşahidə edilməsidir. Azərbaycan xalq çalğı alətləri haqqında geniş tədqiqatlar aparıldığına görə təqdim etdiyimiz kataloqda musiqi alətlərinin tarixinə qısa ekskurs etməklə, əsasən Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında qorunan maddi mədəniyyət nümunələrinə istinadən araşdırma aparılmışdır.

Azərbaycan musiqi alətləri haqqında məlumatlar müxtəlif mənbələr vasitəsilə günümüzə gəlib çatmışdır. Möhtəşəm yazılı abidəmiz “Kitabi-Dədə Qorqud” dastanında “surna”, “tavıl”, “davlumbaz”, “naqara”, “kos”, “boru” kimi musiqi alətlərinin adı çəkilir [1]. XIX əsrdə yaşamış dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərində 40-a qədər çalğı alətinin – 14 simli, 10 nəfəs, 7 membranlı alətin adları çəkilir[2].

Orta əsrlər dövründə Azərbaycan musiqi mədəniyyətinin inkişafında yeni bir mərhələ başlayır. Azərbaycan musiqiçilərinin bu dövrdə yaratdığı musiqi alətləri, notlar haqqında məlumat musiqi

[1] Kitabi-Dədə Qorqud ensiklopediyası. Bakı, 2000, s.213

[2] Abdullayeva S. Azərbaycan xalq çalğı alətləri. Bakı, 2002, s.15

mədəniyyətimizlə daha yaxın tanış olmaq baxımından böyük əhəmiyyət kəsb edir. Orta əsr mənbələri Azərbaycanının məşhur musiqi nəzəriyyəçisi Səfiəddin Urməvinin (1216/1217-1294) "nüzhə" və "müğənnə" adlı alətləri icad etdiyini[3], mahir udçalan olduğunu, həm də tabu-latura – yəni cədvəl şəklində mükəmməl not yazısının müəllifi kimi tanındığı haqqında məlumat verir[4]. Urməvi orta əsr musiqi sənəti haqqında qiymətli bilikləri günümüzə "Kitab-əl-ədvar"("-Dairələr kitabı"), "Şərəfiyyə" əsərləri vasitəsilə çatdırmışdır.

Dövrünün görkəmli bəstəkar, şair, müğənni və çalğıçısı olan Əbdülqədir Marağalı (1353-1434/35) "Məqasid-əl-Əlhan"("Nəğmələrin məqsədləri") və "Fəvaidi-əşərə" ("On fayda") adlı risalələrində dövrümüzə musiqi alətləri, onların ifaçılıq üsulları, təsvirləri haqqında qiymətli məlumatlar ötürmüşdür.

Hafiz Dərviş Əli Cəngi (XVI-XVII əsr) "Töhfətüs-Sürur" adlı musiqi risaləsində şərq, o cümlədən türk musiqi alətlərinin strukturu, təsviri, mənşəyi barədə qiymətli məlumatlar vermişdir[5]. Mütəxəssislərin haqlı olaraq yazdığına görə: "Bu qüdrətli alimlərin risalələri onlardan sonra gələn Şərq musiqi elminin heç bir alimi tərəfindən üstələnməmiş, şedevrlər kimi qalmışdır. Bu alimlərdən sonra yaranmış risalələrdə Şərq musiqi nəzəriyyəsinin əsasını təşkil edən bir çox mürəkkəb nəzəri problemlər artıq qoyulmamış və əgər qismən qoyulmuşsa da müxtəlif variantlarda əvvəlkilərin təkrarı olmuşdur" [6].

Orta əsrlər dövrü musiqi alətləri haqqında məlumat görkəmli şair Nəsiminin əsərlərində də yer almışdır. Nəsimi daha çox musiqi alətlərinin sintezini təqdir etmişdir:

Xoşdur, əgərçi cümləsi bir yerdə cəm ola,
Avazi-çəngü nəğməvü tənbur ilən rübab[7]
Qurulmuş məclisi-şahi, çalınır çəngü ney, qanun[8]
Dəfü çəngü ciğanə, nayü tənbur
Düzülsün daima zilü bəm olsun[9].

Musiqi alətlərinin öyrənilməsində miniatürlər də xüsusi rola malikdir. Miniatürlərdə yüksək təbəqənin məclislərində, hətta ov səhnələrində musiqi alətlərinin istifadəsi ilə bağlı təsvirlərin olması o dövr üçün musiqiyə böyük rəğbəti nümayiş etdirir. Bəzi mürtəce islam xadimlərinin musiqiyə guya şəriət tərəfindən qadağalar qoyması haqqında iddialar musiqi sənətinin qarşısını ala bilməmiş, əksinə ona olan tələbat onun inkişafına təkan vermişdir. Bir çox miniatürlər saray məclislərində kamança və qavalın, dəf və sitarın, tək udun, tək neyin, ov səhnəsində qaval və cəngin, döyüş səhnələrində qarakös, gavdum, zurna və qaraneylərin və s. istifadəsini özündə canlandırmışdır(şəkil 1). Bu miniatürlərdə tarın diz üstə, kamançanın isə yerə qoyularaq çalınması müşahidə olunur. Keçmiş məişətdə yerdə oturmaq ənənəsi, eyni zamanda tarın çanağının iri həcmli olması onun sinədə saxlanmasına imkan verməmişdir. Bu səbəbdən kamançanın oturacaq mili müasir kamançalardan fərqli olaraq musiqiçinin boyuna müvafiq olaraq

[3] S. Abdullayeva. Göst. əsəri, s.17
[4] Yenə orada, s.16-17
[5] KDQ ensiklopediyası, s.87
[6] Azərbaycan musiqi tarixi. 2 cilddə. I c. Bakı, 2012, s.397
[7] Nəsimi İ. Seçilmiş əsərləri. 2 cilddə, I c. Bakı, 2004, s. 25
[8] Yenə orada, s.172
[9] Yenə orada, s.197







*Şəkil 1*



*Şəkil 2*

uzun olurdu. XIX əsrdə tarın Sadıqcan (Mirzə Əsəd oğlu Sadıq, 1846 – 1902, Şuşa. şəkil. 2) tərəfindən sinəyə qaldırılması, musiqiçilərin stulda oturaraq müşaiyət etməsi kamançanın oturacaq milinin gödəldilməsini də şərtləndirmişdir.

Miniatür sənətindən başqa qələmkarlıq sənəti nümunələri, mis və keramika qablar üzərində də musiqi alətlərinin təsvirini müşahidə etmək mümkündür. Muzeyin Etnoqrafiya fondunda qorunan qələmkar divar bəzəklərindən biri üzərində təsvir olunan musiqi məclisində üçsimli tar, üçsimli kaman və qaval[10], digərində isə dümbək, səntur, qoşanağara müşahidə edilir (şəkil 3)[11]. Qeyd edək ki, miniatürlərdə və ya digər mənbələrdə yer alan orta əsr musiqi alətləri müstəqillik dövründə sənətşünas Məcnun Kərimov tərəfindən yenidən bərpa edilmişdir və hal-hazırda “İrs” folklor ansamblında həmin alətlərdən istifadə olunur.







*Şəkil 3*

[10] MATM EF inv. N 2617

[11] MATM EF inv. N 6020





*Şəkil 3*

Azərbaycan musiqi alətlərinin istehsalı uzun əsrlər boyunca davam etmiş, onlardan bəziləri zamanın sınağından çıxmasa da, XIX əsrdə saz, tar, kaman, qaval, nağara, qoşanağara, tütək, zurna, balaban, ney və s. musiqi alətləri əksinə, daha da təkmilləşdirilmiş, yüksək səviyyəyə çatdırılmışdır.

XIX əsrdə musiqi alətlərinin istehsalı Qarabağda xüsusilə inkişaf etmişdir. Musiqişünas Xarrat Qulu, Sadıq Əsəd oğlu (Sadıqcan) görkəmli musiqi alətləri ustası hesab olunurdular[12].

“Qafqazın musiqi konservatoriyası” hesab olunan Qarabağ bölgəsində görkəmli muğam ustalarının yetişməsi burada tarbəndlik sənətinin inkişafına böyük təkan vermişdir. Eyni zamanda Qarabağda ipəkçiliyin geniş yayılması tut bağlarının salınmasını zəruri etmiş və bu da tarbəndlik sənətinin bol xammal ehtiyatı ilə təminatını şərtləndirmişdir. Belə ki, tarbəndlik sənəti üçün əsas xammal 60-70



*Şəkil 4*

[12] Əliyeva A. Azərbaycanda bədii ağacişləmə sənəti tarixindən. Bakı, 1978, s.60

illik tut ağacları hesab olunurdu. Bu məqsədlə nadir hallarda qoz ağacından da istifadə edilirdi. Qarabağın Güləbird, Malıbəyli, Seyidlər, Pircəhan, Suarası, Səfiyan, Fərəcan, Qozlu, Abdal-Gülablı, Şelli kəndlərinin tut ağacları tarbəndlik sənəti üçün daha qiymətli material sayılırdı. Ağaclar adətən tumurcuqlayanda və ya xalq dili ilə desək "qurdqulağı olanda" kəsilir və qurudulmaq üçün 1-2 il sərgidə saxlanılırdı.

Qarabağın ağacişləmə sənətində xüsusi yeri olan və mühüm əhəmiyyət kəsb edən tarbəndlik sənəti öz inkişafını sovet dövründə də davam etdirmiş, nəinki bölgənin, hətta bütövlükdə Azərbaycanın muğam ustalarının əksər hissəsinin bu alətə olan tələbatını ödəmişdir. Təsadüfi deyil ki, inqilabdan sonra Şuşada musiqi alətləri sexi fəaliyyət göstərmiş, sonralar isə bu sex böyüdülmüş və fabrik kimi fəaliyyətini davam etdirmişdir (şəkil 4). Məşhur tarzən Sadıqcanın adını daşıyan Şərq musiqi alətləri fabriki Şuşanın ermənilər tərəfindən işğalına qədər Azərbaycan sənətçilərini yüksək keyfiyyətli tarla təmin etmişdir. Fabrikdə istehsal olunan alətlər hətta Türkmənistan, Özbəkistan Respublikalarına, Dərbəndə, Cənubi Azərbaycana da ixrac olunurdu.

Azərbaycanda musiqi alətləri istehsalı bu gün də davam edir. Musiqi alətlərinin yeni nümunələri yaradılır və xalq çalğı alətləri sırasına salınır. El sənətkarı Əlicavad Cavadovun qarğıdan hazırladığı nəfəs musiqi alətləri Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında qorunur və kataloqa daxil edilmişdir. Tarbənd Məmmədəli Məmmədov isə hazırladığı yeni tar modelini muzeyə bağışlamışdır.

Azərbaycan musiqi alətləri təkcə ölkəmizdə deyil, bütün dünyada rəğbətlə qarşılanır. Tar, kaman, saz, balaban kimi musiqi alətlərinin YUNESKO-nun qeyri maddi-mədəni irs siyahısına daxil edilməsi dövlətimizin musiqi alətlərinin qorunması və təbliği sahəsində atdığı uğurlu addımlardandır və gələcəkdə bu alətlərin mənimsənilməsinin qarşısının alınacağına qarantdır.







***Nağara.*** Ağac, dəri, kəndir. Ölçüsü: hünd: 31 sm, dm: 37 sm. EF inv. № 4648



***Nağara.*** Ağac, dəri, kəndir. Muzey əməkdaşı Z.Dulayeva 17 0ktyabr 1983-cü il Qarabağa ezamiyyəti zamanı gətirib. Ölçüsü: hünd: 33 sm, dm: 35 sm. HXƏF inv. № 4777



***Nağara.*** Ağac, dəri, kəndir. Ölçüsü: hünd: 27 sm, dm: 35 sm. EF inv. № 4013

# Zərb alətləri

Azərbaycanın mezolit dövrü abidəsi Qobustan qoruğu ərazisindəki Çingirdağda mühafizə olunan qaval-daş ölkənin, eləcə də dünyanın ən qədim musiqi alətidir. "Çalğı" sözünün "zərbə endirmək" ( "qılınc çalmaq") sözü ilə bağlandığını nəzərə alsaq, ifadənin daha çox zərb musiqi alətləri ilə bağlı olduğunu və bu qrupa aid olan alətlərin daha erkən yarandığını söyləmək olar. Bildiyimiz kimi ən qədim inanclardan biri olan metal inancına görə qədim insanlar günəş tutulması zamanı metalı döyəcləyərək şər qüvvələri qovmağa çalışırdılar. Bu ayinin özü belə zərb alətlərinin yaranması üçün əsas ola bilərdi. Qavaldaşdan əsasını götürən zərb alətləri minilliklər boyunca nəsillərdən-nəsillərə ötürülərək günümüzədək gətirilib çatdırılmış, ənənələr sayəsində qorunub saxlanmışdır.

Orta əsr miniatürlərində dəf, davul, dümbək, qoşanağara kimi zərb musiqi alətlərini müşahidə etmək mümkündür. Bu onu göstərir ki, Qobustandan əsası qoyulan zərb musiqi alətləri tarixin inkişafı prosesində təkmilləşərək mükəmməl forma almışdır.

Azərbaycanda olmuş XVII əsr alman alimi və səyyahı Adam Oleari dümbəyi təsvir edərək yazır ki, "Alət bişmiş dulusçu gilindən uzunsov, böyük küpə şəklində, alt tərəfdən açıq hazırlanırdı. Çalğı vaxtı onu qoltuq altında tutaraq çalırdılar. Dümbək neylə birgə səslənirdi və yazqabağı gecə-gündüzün bərabərliyindən əvvəl keçirilən "Çaharşənbə"(çərşənbə - G.A.) bayramı vaxtı uşaqlar və gənclər tərəfindən istifadə olunurdu. Novruz bayramı zamanı şəhər







divarlarında və qüllələrdə, hər yerdə kərənay (truba)[13] və nağaralar səslənirdi”[14]. A.Olearinin verdiyi təsviri Etnoqrafiya fondunda qorunan saxsı dümbək sağanağı ilə müqayisə etdikdə aydın olur ki, bu musiqi aləti orta əsrlərdən XX əsrin əvvəllərinə qədər formasını dəyişmədən istifadə olunmuşdur. Etnoqrafiya fondunda bu tipli dümbək çanağının bir neçə nümunəsi qorunur. Bununla belə fondda ağacdan hazırlanmış dümbək də yer alır.

Muğam sənətinin ən mühüm atributlarından biri olan qaval əsasən xanəndələr tərəfindən muğam ifası zamanı səsgücləndirici, təsniflərin oxunmasında isə çalğı aləti kimi istifadə olunur. Miniatürlərdə qavalın bir neçə variantına rast gəlinir. Bunlar arasında kiçik həcmli, kənarında 3-4 ədəd çıxıntısı olan dəflər daha çox müşahidə olunur. Bununla yanaşı miniatürlərdə müasir dövrə qədər gəlib çatmış qaval təsvirləri da az deyildir.

A.Oleari qaval və ya dəfin və kamançanın üzünə çəkilən pərdə haqqında maraqlı məlumat verir. Onun yazdığına görə, “bu alətlərin üzərinə qutan quşunun dimdiyinin alt hissəsində və boğazında sallanan kisənin dərisi çəkilirdi. Dəri tarıma çəkilərkən öküz qovuğu kimi şəffaf olurdu”[15]. Qeyd edək ki, qaval və ya dəfin hazırlanmasında qutan quşunun kisə pərdəsindən istifadə aradan çıxmış, günümüzə qədər gəlib çatmamışdır.

Qavalın hazırlanması xüsusi səriştə və ustalıq tələb edirdi. XX əsrə aid çöl materialları bu alətin sağanağının meşə ağaclarından (qoz və ya fıstıq) büküldüyünü göstərir. Naqqa balığın sinə pərdəsi ya da çəpiş dərisindən üz çəkilirdi. Dərini sağanağın üstünə çəkib, kənarlarını sağanağa oturdur, köşə[16] ilə möhkəm bağlayırdılar. Bir-iki gün qalıb quruduqdan sonra artıq hissələr kəsilib atılır, qaval səliqəli hala salınır, köşənin üstünə isə məxmər parçadan və ya baftadan köbə çəkilirdi. Qavalın kənarları metal sırğalarla bəzədilirdi. Sırğaları hazırlamaq üçün “xişdək” adlanan xüsusi qəlibdən istifadə edilirdi. Metal vərəqə qəlibin üzərinə qoyulur və kiçik sümbə ilə üstündən zərbə vurulurdu. Zərbə nəticəsində “nəlbəki” deyilən hissə (elementi psixoloji görüntü əsasında belə adlandırırlar, əslində isə zərgərlik sənətindən məlum olan şarlı sırğaların hazırlanması prosesi ilə eyni olub, xişdək qəlibi vasitəsilə həyata keçirilirdi)[17] qəlibdən çıxırdı. Böyük sümbə ilə zərbə vurduqda isə “sırğa” əldə olunurdu. Sırğa simlə nəlbəkinin deşiyindən keçirilərək qavalın divarına asılırdı.

[13] Döyüş meydanında, təntənəli mərasimlərdə çalınan uzun boru şəklində nəfəsli musiqi aləti.
[14] Sitat S.Abdullayevanın göstərilən əsərindən götürülmüşdür, s.46
[15] Sitat S.Abdullayevanın göstərilən əsərindən götürülmüşdür, s. 46
[16] Aşılanmış dəridən kəsilmiş qaytan
[17] G. Abdulova. Qarabağın sənət irsi. Bakı, 2022, s. 147-148



***Dümbək.*** Metal, plastika. Azərbaycan Bayrağı ordenli, Vətən müharibəsi şəhidi Rövşən Camalova (PK Rövşənə) məxsus olmuşdur. Ölçüsü: hünd: 35 sm, dm: 23 sm.HXƏF inv. № 5393





***Dümbək (baraban).*** Dəmir, dəri, bez. Balaxanı kəndindən tapılıb. Neft quyusundan neft çıxarmaq üçün istifadə edilmiş, sonralar alt hissəsinə dəri çəkilərək musiqi aləti kimi istifadə olunmuşdur. Ölçüsü: hünd: 42,5 sm, dm: 25.5 sm, oturacaq: 15sm. EF inv. № 5571



***Dümbək.*** Saxsı, dəri, metal. 14 /II- 1936-cı ildə məzhəkəçi Cabbar Vahabovdan alınıb. Ölçüsü: hünd: 46 sm, dm: 23 sm. EF inv. № 1568



***Dümbək.*** Ağac, dəmir, kəndir. XX əsrin əvvəli. Ölçüsü: kəmərin uzunluğu- 80sm, hündürlüyü-61sm, diam.-24,5sm, oturacağın diam.- 23sm. EF inv.№ 9613



***Qoşanağara.*** Saxsı, keçi dərisi, dəri köşə. XX əsr. Ölçüsü: hündürlüyü- 23,5 x 23,5sm, diam.15 x 9,5 sm, oturacağın diam.- 9,5 x 8sm EF inv.№ 4702

***Qoşanağara hissəsi.*** Saxsı, keçi dərisi. Ölçüsü: hünd: 22 sm, dm: 14 sm, oturacağı: 9 sm. EF inv. № 4708





***Qoşanağara.*** Saxsı, dəri. XIX əsr. Ölçüsü: hünd: 19 x 18,5 sm, dm: 16 x 9 sm, oturacağı: 10 x 6,5 sm. EF inv. № 2392





***Qoşanağara.*** Saxsı, dəri. Ölçüsü: hünd: 18 x 16,5 sm, dm: 14 x 8 sm, oturacağın dm: 8 x 6,5 sm. EF inv. № 3379



***Qoşanağara.*** Saxsı, dəri. Ölçüsü: hünd: 22 sm, dm: 20 x 12 sm. EF inv. № 130



***Qoşanağara.*** Saxsı, dəri. Ölçüsü: hünd: 7 sm, dm: 7,5x 5,5 sm. EF inv. № 3437



***Qoşanağara sağanaqları.*** Saxsı. Ölçüləri: 23 x 11 x 9,5sm; 21,5 x 10 x 9,5 sm. EF inv. № 8288



***Dümbək.*** Dümbək sağanağı. Saxsı. Ölçüsü: hünd: 27 sm. XX əsr. EF inv. № 8287



***Qoşanağara.*** Ağac, dəri, köşə. Muzey əməkdaşı Z.Dulayeva 17 oktyabr 1983-cü il Qarabağa ezamiyyəti zamanı əldə edilmişdir. Ölçüsü: hünd: 20 x15sm, diam: 68 x 52,5sm. HXƏF inv. № 4778









***Qaval sağanağı.*** Ağac, sümük, bafta. Ölçüsü: hünd: 5sm, dm: 49sm. EF inv. № 4378







***Qaval sağanağı.*** XX əsrin əvvəli. Tut ağacı, sümük, sədəf, 36 metal halqa. Ətrafında - əl yazısı ilə kiril əlifbasında "Seyid, oxuyan Seyid Mirtağı Mirbabaev 1920 q." yazılıb. Qaval, 1920-ci ildə Mirtağı Mirbabayev (oxuyan Seyid) tərəfindən Ağabacı Rzayevanın atası İsmayıla bağışlanıb. Ölçüsü: hünd: 5sm, dm: 47,5 sm. EF inv. № 7841







***Qaval.*** XIX əsr. Ağac, keçi dərisi, sümük. 1 tərəfində qadın təsviri, digər tərəfində Rusiyanın gerbi olan 21 ədəd xırda sikkə, 1 zınqrovu var. Ölçüsü: hünd: 6,5sm, dm: 48sm. EF inv. № 9700





***Qaval.*** XIX əsr. Ağac, balıq dərisi, sümük. İç tərəfdən kənarında 1 tərəfində qadın təsviri, digər tərəfində isə Rusiya gerbi olan 15 ədəd sikkə və 9 zınqrovu var. Ölçüsü: diam: 43,5sm hünd: 6sm. EF inv. № 9701





***Qaval.*** Ağac, sümük, metal, bafta. Ölçüsü: diam.- 37sm. EF inv.№ 4649



***Qaval.*** Ağac, dəri, sədəf. İç tərəfdən 62 metal düyməciyi və halqası var. Üzərində arfa təsvir edilmiş dəri və məxmərdən qutusu var. Qaval xanəndə Xan Şüşinskiyə məxsus olmuş, onun özü tərəfindən xalq artisti Qədir Rüstəmova bağışlanmış və Q.Rüstəmovun həyat yoldaşı Fatma xanım tərəfindən muzeyə hədiyyə edilmişdir. Ölçüsü: dm: 35 sm. HXƏF inv. № 5597





***Qaval.*** Ağac, balıq dərisi, sədəf, metal. Üzərində qabarıq arfa təsviri olan qovluğu var. Ölçüsü: hünd: 5,5sm dm: 36,5sm. Qovluğun: hünd: 8sm, dm: 42x42 sm. 1971-ci ildə Adıgözəlovdan alınıb. EF inv. № 6618



***Qaval.*** Ağac, sümük, balıq dərisi, metal, bafta, 4 zınqrov. Ölçüsü: diam.-38 sm. Qaval, korifey muğam ustadı Cabbar Qaryağdı tərəfindən Qurban Pirimova hədiiyə edilib. !967-ci ildə sənətkarın qızı Pirimova Tamara Qurban qızından alınıb. Ölçüsü: diam.- 38 sm. EF inv.№ 5809



***Qaval modeli.*** Ağac, kağız, metal və sümük işləməli. Ölçüsü: hünd: 4 sm, dm: 14 sm. EF inv. № 3436



***Qaval.*** Ağac, dəri, metal. Ölçüsü: dm: 38,5 sm. HXƏF inv. № 3068



***Qaval.*** Pərdəsi plastikadır. Ağac, metal, ipək. 50 metal lövhəcik və halqası var. Qara rəngli sintetik parçadan olan futlyardadır. Ölçüsü: dm: 36 sm. Xanəndə Qədir Rüstəmova məxsusdur. HXƏF inv. № 5598



***Taxta qaval.*** Tut ağacı hissəsi. Qədir Rüstəmov həyatindəki tut ağacından kəsdirdiyi bu lövhə ilə məşq edən zaman səsinə güc qatarmış. Ölçüsü: hünd: 2 sm, dm. -26 sm. HXƏF inv. № 5596



# Sazlar

Bildiyimiz kimi saz ən qədim musiqi alətlərindən biridir. “Kitabi-Dədə Qorqud” dastanında onun adı “qopuz” olaraq anılır. Tar və kamançadan fərqli olaraq saz üz hissəsi daxil tut ağacından kəsilmiş nazik hissələrdən ərsəyə gətirilirdi. Sazların da dekorativ tərtibatına önəm verilir, bu iş sədəf, fil sümüyü, metal kimi materiallarla həyata keçirilirdi. Həcmindən asılı olaraq böyük sazlar “qara saz”, “ana saz”, kiçik sazlar isə “cürə saz” adlanırdı. Sazın bir növü “çoğur” adlanır ki, sənətşünas Məcnun Kərimov onun tarixi baxımdan qopuzla saz arasında istifadə olunduğu haqqında məlumat vermişdir. Məlumat üçün qeyd edək ki, XVI əsrin aşıq yaradıcılığında artıq sazın adı hallanır. “Koroğlu” dastanında da yalnız “saz” ifadəsi işlədilir. Sazı türk mədəniyyətinin rəmzlərindən biri hesab edən professor Məcnun Kərimov onun hazırlanma üsulunu aşağıdakı qaydada şərh edir: “Sazın çanağı tut ağacının seçmə növlərindən, qolu isə qoz ağacından hazırlanır. Çanağın gövdəsi bir-birinə bərkidilmiş tək sayda (adətən 9) taxta “qabırğa”lardan yığılır. Bu qabırğalar qol ilə çanağı birləşdirən “küp” adlı kiçik hissənin üzərində yığılır və sonra ona qol əlavə edilir. Çanağın üstü nazik taxta üzlüklə örtülür və qoluna 16-17 pərdə bağlanır” [18].



***Çoğur.*** Ağac, sümük. XVIII əsr. Ölçüsü: uzunluğu: 91 sm, saplağı: 52 sm, çanağı: 40 x 24 x 15 sm. EF inv. № 4010

[18] Kərimov M. Simli alətlər// Mədəni-maarif jurnalı, 7.2005, s.11



***Cürə saz.*** Şax tut ağacındandır. 4 simi var. Aktyor Əli Qurbanova məxsus olmuşdur. Ölçüsü: ümumi uzunluğu: 88 sm, saplağı: 57 sm, çanağın uzunluğu: 30 sm, eni: 17,5 sm. EF inv. № 5490





***Cürə saz.*** Armud ağacındandır. 8 aşığı, 11 pərdənin qalıqları var. Ölçüsü: ümumi uzunu- 63,5 sm, çanaq: 24 x 13 x 12 sm.EF inv. № 9256.







***Cürə saz.*** Ağac, sədəf. 14 pərdə, 5 simi, 5 aşığı var. Ölçüsü: ümumi uzunu: 69,5 sm, saplağı: 45sm, çanaq: 24 x 12x 13 sm. EF inv.№ 4011

***Saz.*** Tut ağacındandır, kəməri dəri. 8 aşığı, 7 simi, 19 pərdəsi var. XX əsrin əvvəli. Ağdam. Ölçüsü: uzunluğu: 98 sm, çanaq: 44 x 22 x 22 sm. EF inv.№ 9587.



***Saz-Xatavənd.*** Tut ağacı, sümük, dəri. 7 aşığı, 4 pərdəsi var. Borçalı aşığı Aşıq Hüseyn Bozalqanlıya məxsus olmuşdur. Ölçüsü: uzunluğu: 93 sm. EF inv. № 5210.

# Tarlar

Müasir Azərbaycan tarı məşhur tarzən Sadıqcanın adı ilə bağlıdır. Sadıqcan tarın quruluşunu dəyişdirərək onun qolunda bir çox artıq pərdələri atıb, 17 pərdə saxlamışdı. Sadıqcana qədər tarı diz üstə çalırdılar. Sadıqcan tarı əldə tutaraq sinə üzərində çalınmasını təmin etmişdir. Sadıqcana qədər tarın beş simi mövcud idi. O, bu simlərin sayını on birə çatdırdı, "Segah" muğamını inkişaf etdirərək tarın qoluna "Zabul" pərdəsini əlavə etdi[19]. Sadıqcanın təkmilləşdirdiyi bu tarı xalq "Sehirli tar", Sadıqcanı isə "Tarın atası" adlandırmışdı[20]. Azərbaycan tarını isə bütün tarların atası da adlandırırlar[21].

"Mirzə Sadığın tara gətirdiyi yeniliklər az bir zamanda bütün Zaqafqaziya (Cənubi Qafqaz) və Orta Asiya tarçıları tərəfindən danışıqsız qəbul olundu. Onun yaratdığı yeni tar nümunəsi çox az bir müddət içərisində yalnız Azərbaycanda deyil, bütün Cənubi Qafqaz, Dağıstan və Orta Asiyada mövcud olan primitiv, beş simli, zəif səsli tarı sıxışdırıb aradan çıxardı"[22]. Sadıqcanın tarı öz dövründən başlayaraq bu günə qədər adı çəkilən ölkələrdə istifadə olunur.

Vaxtilə Sadıqcanın tarın "ürəyi və ciyəri" [23] adlandırdığı çanaq hissəsi tut ağacından səkkizvari formada yonulub hazırlanır. İnqilaba qədər (XX əsrin əvvəllərinə qədər- G.A.) tarın çanağı öz həcmi etibarilə indikindən bir qədər böyük emal edilirdi[24].

Tar çanağının yonulması üçün iskənə, rəndə, törpü, çəkic və s. alətlərdən istifadə olunur. "Mirzə Sadıq riyazi hesablamalar, bir çox "ölçüb-biçmələr"-dən sonra hər şeydən əvvəl tar gövdəsinin hər iki yan tərəfdən (tarın qolunun birləşdiyi kiçik çanaq və həm də böyük çanaqda simlərin bəndləndiyi "düymə" tərəfdən) olduğu kimi çəp şəkildə yox, əksinə, düz, şaquli olmasını daha düzgün hesab etdi"[25].

Çanaq hazır olandan sonra onun üzünə pərdə çəkilir. Bu məqsədlə malın ürək pərdəsindən istifadə olunur. Pərdəni biçmək üçün tarbəndin əlinin altında xüsusi pərdə qəlibi olur. Pərdənin üstündə mal buynuzundan hazırlanmış "üz xərəyi" yerləşdirilir. "Quş

[19] Şuşinski F. Şuşa. Bakı, 1958, s.28
[20] Yenə orada
[21] Qarabağlı S. Muğamımız. Qarabağ qəzeti, 27.01.06
[22] Bədəlbəyli Ə. İzahlı monoqrafik musiqi lüğəti. Bakı, 1968, s.68
[23] Yenə orada, s.195
[24] Yenə orada, s.68
[25] Bədəlbəyli Ə. Göstərilən əsəri, s.195





xərəyi" adlanan arxa xərək isə qolun üstündə yerləşdirilir. Əvvəllər bu xərəyi gözəgəlimli etmək üçün keçə parçasının üstünə müəyyən qədər göydaş tökür və həmin hissəyə sürtərək parıldadırdılar. Keçmişdə pərdə üçün münasib material mal bağırsağı idi. Hər tarın pərdəsi üçün təxminən iyirmi altı metr mal bağırsağı işlədilirdi.

Tarın aşıqları da ağac materialından hazırlanır. Bu məqsədlə kökü daha yaxşı saxlamağa qabil olan qoz və armud ağaclarından istifadə olunur. Tarın üç kiçik, altı böyük aşığı vardır. Onun zəruri hissələrindən biri də çəngəldir (buna iç ağacı da deyirlər). Çəngəl qolla çanağı birləşdirərək qolun möhkəmliyini təmin edir. Tarda üç şah pərdə vardır. Birinci və ikinci şah pərdənin üstündə cingənə yerləşdirilir. Cingənənin üstündən isə qoşa tellər çəkilir. Tarın kənarları xüsusi zövqlə, sədəf, gümüş, fil sümüyü və başqa materiallarla bəzədilirdi.

MATM -da mühafizə edilən Qarabağa məxsus tarlardan biri[26] həm dekorativ bəzək tərtibatına, həm də tarixinə görə çox böyük maraq kəsb edir. Tarın üzəri sədəf və fil sümüyü ilə nəfis şəkildə bəzədilmişdir. İnventar kitabında yazılan qeydə görə tarın üzərində ərəb əlifbası ilə "1744"-cü il tarixi, ustanın adı "Samson" və "Şuşa şəhəri" yazılmışdır. Tarı tədqiq edən mütəxəssis S.Abdullayeva həmin qeydi təəssüf ki, analiz etmədən elmi dövriyyəyə daxil etmişdir. Əslində isə qeyd edilən məlumat tarın üzərində yoxdur. Bu məlumatdan istifadə edən bəzi mütəxəssislər müasir tarın Sadıqcan tərəfindən hazırlanmadığı haqqında əsassız fikir yürüdürlər. İnventar kitabda yazılan məlumatda bir neçə şübhəli məqam vardır. Birinci, tarixi mənbələr Şuşanın bünövrəsinin qoyulmasını 1750-1751-ci illərə, əhalinin məskunlaşmasını isə 1756-cı ilə aid edir. Yalnız şəhər kimi formalaşdıqdan sonra ətraf ərazilərdən müxtəlif sənət sahibləri Şuşa şəhərinə axışmağa başlamış, muğam sənəti burada XIX əsrdə yüksək səviyyədə inkişaf etmişdir. Həm də ilkin dövrlərdə şəhər Pənahabad, sonralar isə Şuşa adlandırılmışdır. İkincisi, qeydin ərəb əlifbası ilə yazılmasının göstərilməsi də şübhə doğurur. Əgər adı çəkilən tarın ustası erməni olsaydı, yəqin ki, üzərindəki yazı erməni əlifbasında olardı. Xatırladaq ki, tar 1956-cı ildə satınalma yolu ilə Bakı şəhərində yaşayan A.Avanesyandan alınmışdır. Ola bilsin ki, məlumat da inventar kitaba bir erməni saxtakarlığı nəticəsində daxil edilmişdir və bu məlumatda erməni "uzaqgörənliyinin" izi aydın şəkildə görünür. Əgər tar 1744-cü il tarixində hazırlanmışsa və erməni Samsona aiddirsə, belə çıxır ki, adı çəkilən erməni həmin dövrdə mövcud olmayan Şuşa şəhərində yaşamışdır. Yəni bəhs etdiyimiz saxta məlumat ermənilərin Şişə adlı kənddə Şuşanın şəhər kimi formalaşmasından əvvəl yaşadığını göstərmək üçün uydurulmuşdur. Təəssüflər olsun ki, heç bir müəllif bu məqama fikir verməmişdir. Ən mühüm məqam isə tarın pərdə və simlərinin Sadıqcanın XIX əsrin ortalarında təkmilləşdirdiyi tara uyğun olmasıdır. XVI-XVIII əsrlərə aid bütün miniatürlərdə iri çanaqlı, diz üstə çalınan tarlar müşahidə edilir. Bu fakt da bəhs olunan tarın qətiyyən XVIII əsrə aid olmadığını təsdiqləyir.

Tar və kamanın çanağını yonmaq üçün iskənə, rəndə, törpü, iç və çöl kərkisi adlanan alətlərdən, yapışdırmaq üçün yapışqandan istifadə edilirdi.

[26] MATM EF inv. №4379



***Tar.*** Ağac, sədəf. 7 simi, 9 aşığı, 22 pərdəsi var. Ölçüsü: ümumi uzunu: 87,5 sm, çanağın dm: 17,5sm. HXƏF inv. № 4379







***Tar.*** Tut ağacı, sədəf. XIX əsrin axırında Şuşa şəhərində hazırlanıb. 6 aşığı, 9 simi var. Ölçüsü: ümumi uzunu: 99,5 sm. EF inv. № 7319



***Tar modeli.*** Qara ağac, sədəf. 8 pərdəsi, 3 aşığı var. Ölçüsü: uzunu-25,5sm. EF inv. № 3434



***Tar.*** Tut ağacı, sədəf. 9 simlidir. Ölçüsü: ümumi uzunu- 88sm. EF inv. № 5489



***Tar.*** Tut ağacı. 8 simi, 9 aşığı, 22 pərdəsi var. Ölçüsü: uzunu: 86 sm. EF inv. № 7970



***Tar.*** XX əsrin II yarısı. Tut ağacı, sədəf. Pərdəsi qola yox, pərdəaltı ağaca sarınıb. 1971-ci ildə Bəhram Mansurovdan alınıb. Ölçüsü: ümumi uzunu- 80 sm. EF inv. № 6801



***Tar.*** Ağac, sədəf. 5 nazik, iki qalın sarı simi var. Metal lövhəcik üzərində rus dilində "Əziz Niyaziyə Şuşalı yerlilərindən 70 illiyi münasibətilə" yazılmışdır. Ölçüsü: uzunu -85 sm. HXƏF inv. № 4894





***Tar.*** Tut ağacı,sədəf XX əsrin əvvəli. Şuşa. 10 simi, 22 pərdəsi, 9 aşığı var. Yan tərəfdə kiril əlifbası ilə "И. C.A." hərfləri yazılıb. Qovluğu var. Ölçüsü: uzunu- 89 sm. EF inv. № 7290

***Tar.*** Çanağı və qolu tut ağacındandır. Böyük çanağın 2 yan və baş tərəflərində sədəflə həkk edilmiş "Şiri-Xurşud" nişanı var. 8 simi, 10 aşığı, 22 pərdəsi var. 1890-cı ildə Rəştdə keçirilən "Muğam" müsabiqəsində bu tar, tarzən Mirzə Fərəcə mükafat olaraq verilib. Ölçüsü: ümumi uzunluğu-87 sm, böyük çanağın diametri-14,5 sm. EF№ 7840



***Tar simi və qovluğu.*** XX əsrin əvvəli. Ölçüsü: uzunu: 89 sm EF inv. № 7290



***Qulaqcıq.*** Ağac, tar hissələrindəndir. 1971-ci ildə Mansurovdan alınıb. Ölçüsü: ümumi uzunu: 19 sm, eni-10,5 sm. EF inv. № 6824



***Tar.*** Çanağı tut, qolu palıd ağacı. 8 aşığı, 10 simi var. Ölçüsü:ümumi uzunu: 80,5 sm. EF inv. № 7842



***Tar.*** Ağac, dəri, sümük. Ölçüsü: uzunu: 87 sm. HXƏF inv. № 3070



***Şagird tarı.*** Ağac, dəri. 9 qalın, 2 incə simləri var. Ölçüsü: uzunu- 80 sm. HXƏF inv. № 4775



***Tar.*** Ağac, dəri. 9 incə, 2 qalın simi var. Ölçüsü: uzunu - 87 sm. HXƏF inv. № 4776





***Yaylı tar.*** Ağac, keçi dərisi, metal. Tətbiqi sənət əsəri (yeni alət). Yayla ifa olunan musiqi alətləri ailəsinə daxildir. Alət 4 aşıq və 4 simdən ibarətdir. çanaqiçi səslərin dövr etməsi üçün kiçik çanaq açıq saxlanılmışdır.2017-ci ildə Məmmədəli Mirəli oğlu Məmmədov tərəfindən hazırlanıb. Şəhadətnaməyə əsasən, "Yaylı tar" 28.04-2017-ci ildə hazırlanıb. Ölçüsü: uzunluğu: 77 sm, hündürlüyü- 16 sm, eni- 17 sm. Ef inv.№ 10073





***Suvenir tar.*** Taxta. Üzərində "Ziya müəllimə 70 illik yubileyi münasibətilə Astara mədəniyyət şöbəsinin kollektivi adından. 15.01.94" yazısı var. Akademik Ziya Bünyadova məxsusdur. Ölçüsü: uzunluğu -42 sm. HXƏF inv. № 6202





***Tar.*** Şiraz. XVIII əsr. Tut ağacı, sədəf. 27 pərdəsi, 6 aşığı, 3 simi var. Ölçüsü: ümumi uzunu- 100 sm. EF inv. № 5150





***Tar.*** XIX əsrin sonu. Tut ağacı, sədəf. Üzərində "K.A" hərfləri yazılıb. Ölçüsü: Ümumi uzunluğu- 88sm. EF inv. № 7070





# Kamançalar

Azərbaycan xalq musiqi alətlərinin digər məşhur növü muğam üçlüyünə daxil olan kamançadır. Kamançanın çanağı tut, qolu isə qoz ağacından hazırlanırdı. Kamança dörd aşıq və dörd teldən ibarətdir. Tel adətən at quyruğundan, üz pərdəsi balıq dərisindən çəkilirdi. Orta əsr musiqişünası Əbdülqadir Marağai kamanlı alətlərin təsvirini vermişdir. Onun yazdığına görə kamança hindqozunun qabığından və ya içi oyulmuş ağacdan hazırlanır, iki simi at quyruğunun tüklərindən çəkilir, daha yaxşı səs çıxarması üçün isə ipək saplardan istifadə edilirdi. Gövdəyə öküz ürəyinin pərdəsi çəkilirdi[27]. Bu məlumatla Etnoqrafiya fondunda qorunan simli musiqi alətlərini müqayisə etdikdə məlum olur ki, XXI əsrin əvvəllərinə qədər musiqi alətlərinin hazırlanmasında istifadə edilən üsulların əksəriyyəti empirik olaraq ötürülmüş, materiallar dəyişmədən istifadə edilmişdir. Hal-hazırda da musiqi alətləri istehsalında sintetik materiallarla yanaşı mal ürəyinin pərdəsi, naqqa balığın dərisindən istifadə edilməkdədir. Miniatürlərdə rast gəldiyimiz kamança və kaman nümunələri forma baxımından müasir dövr kamançalarından çox az fərqlənir. Kolleksiyada qorunan kamançalar sədəf, fil sümüyü, metal və qarasavadla bəzədilmişdir.

[27] S.Abdullayeva. Göst. əsəri. s. 29.



***Kamança.*** Ağac, sümük, dəri. 3 simi, 3 aşığı var. Cənubi Azərbaycan. Ölçüsü: uzun: 78,5sm, umumi dm: 19,5sm. HXƏF.inv.№ 1503

***Kamança yayı.*** Ağac, metal, kəməri. Zülfüqar Hacıbəyova məxsusdur. Ölçüsü: 56 sm. HXƏF inv. № 1504





***Kamança.*** Armud ağacı, metal. 3 aşığı var. Ölçüsü: ümumi uzunluğu: 89sm. EF inv. № 9255



***Kamança modeli.*** Qara ağac, sədəf, metal. 2 aşığı var. Ölçüsü: uzunluğu- 25sm. EF inv. № 3435







***Kamança.*** Ağac, sədəf. 4 aşı-ğı, 4 simi var. Üstündə “1881-ci il, A.A” həkk edilib. Şuşa. EF inv. № 3552











***Kaman.*** Armud ağacı, metal, at tükü, sədəf. 4 simi var. XIX əsr. Ölçüsü: ümumi uzunluğu: 74,5 sm, çanağın diam-12, 5sm. Yayın uzunluğu-63sm. EF inv. № 4650







***Kamança.*** Armud ağacı. 4 simi, 4 aşığı var. Səfər üçündür. Ölçüsü: ümumi uzunluğu: 51,5 sm, çanağın dm: 8 sm. EF inv. № 9254

***Kamança.*** Ağac, dəri, metal. 2 nazik, 2 qalın simi var HXƏF inv. № 3069



***Kamança.*** Ağac, dəmir, dəri, at tükü. 4 aşığı, 2 simi var. Ölçüsü: uzunluğu: 74 sm, yayı: 65 sm. SSRİ xalq artisti, aktyor Sidqi Ruhullaya məxsusdur. HXƏF inv. № 5497









***Kaman.*** Ağac, metal. 5 simi var. Qarabağ. XIX əsr. Ölçüsü: ümumi uzunluğu: 93 sm, çanağın dm: 18sm. Yayın uzunluğu: 76sm. EF inv. № 3433

# *Nəfəs musiqi alətləri*

Azərbaycan musiqi alətlərinin geniş yayılmış bir qrupunu nəfəs musiqi alətləri təşkil edir. Bu qrupa tütək, zurna, balaban, yastı balaban, ney, düdük və s. Daxildir. Tütək adətən qarğıdan, zurna və balaban isə armud ağacından hazırlanırdı. Mingəçevirdən tapılan antik dövrə aid artefaktın nəfəsli musiqi aləti olduğu ehtimal edilir . Orta əsrlər dövrünə aid miniatürlərdə nəfəsli musiqi alətləri geniş şəkildə müşahidə olunur. Fondda toplanan nəfəsli musiqi alətləri əsasən XIX-XX əsrin əvvəllərinə aiddir.





***Yastıbalaban.*** Armud ağacı, qamış. Üst tərəfdə 8, altda 1 dəliyi var. Ölçüsü: müştüyü: 11sm, tütək:31,5sm. EF inv. № 4651



***Tütək-ney.*** Yuxarısı tut ağacından, aşağısı qamışdandır. Üzərində 7, al tərəfdə 1 dəliyi var. Ölçüsü: uzunu: 39sm. EF inv. № 4653



***Zurna.*** Ağac. 8 dəliyi var. Ölçüsü: uzunu-31sm. EF inv. № 9225







Sümsü dəsti. 12 ədəd nazik qarğı çubuqlarındandır. Bir-birindən dəliklərin sayı ilə fərqlənir. İsmayıllı rayonunun Müdirsə kənd sakini Cavadov Əlicavad Azərbaycan nəfəsli musiqi alətlərini özü şəxsən düzəldib muzeyə təqdim etmişdir. EF inv. № 8318 – 8328



Tütək. XX əsrə aiddir. 3 hissədən- tütək, qovluq və tütəyi təmizləyən çubuqdan ibarətdir. Qovluğun üzərində cızma üsulu ilə həndəsi naxışlar salınıb. Boğazında dəridən bağı var.Tütəyin 8 dəliyi var.Tütəyi təmizləyən çubuğa qırmızı, yaşıl parça hissələrindən asma bərkidilib. Ölçüsü: qovluğun uzunu: 52,5sm, diam: 3sm, tütəyin uzunu: 48 sm, çubuğun uzunu: 34sm, asma bəzəyin uz: 99sm.EF inv. № 9703



***Sümsü dəsti.*** 12 ədəd nazik qarğı çubuqlarındandır. Bir-birindən dəliklərin sayı ilə fərqlənir. İsmayıllı rayonunun Müdirsə kənd sakini Cavadov Əlicavad Azərbaycan nəfəsli musiqi alətlərini özü şəxsən düzəldib muzeyə təqdim etmişdir. EF inv. № 8313-8320

***Sümsü balaban.*** Qarğı. Yandırma üsulu ilə 9 dəliyi var. İsmayıllı rayonunun Müdirsə kənd sakini Cavadov Əlicavad Azərbaycan nəfəsli musiqi alətlərini özü şəxsən düzəldib muzeyə təqdim etmişdir. Ölçüsü: sümsünün uzunu- 8sm, balaban- 24,5 sm. Ef inv.№ 8321



***Ney.*** XX əsr. Ağac, qamış.
Ölçüsü: uzunu-31,5 sm.
EF inv. № 568







***Tütək.*** Ağac. 9 dəliyi var. 8 yerdən sapla bərkidilib. Ölçüsü: uzunu-31sm. EF inv. № 5491



***Düdük.*** Ağac, plastika, metal. 6 dəliyi var. Fiqurludur. Azərbaycan dramaturgiyasının banisi, maarifçi M.F.Axundova məxsusdur. Ölçüsü: 20,5 sm. EF. inv. № 4273



***Ney.*** Ağac, qamış. Üst tərəfdə 8, altda 1 dəliyi var. Ölçüsü: uzunu-30,5sm. EF inv. № 9228



***Tütək.*** Qarğı, dəmir. Üstdə 7, altında 1 dəliyi var. Ölçüsü: uzunu-30,8sm. Tütək Əhmədağa Bakıxanova məxsus olmuşdur. 12.04.1978-ci ildə oğlu Məmməd Bakıxanovdan alınıb.
EF inv. № 7971

***Balaban.*** Armud ağacı, qarğı, sap. Öndə 8, arxada 1 dəliyi var.
Ölçüsü: Ümumi uzunluğu: 40sm.
EF inv. № 8325





***Tütək.*** Tut ağacı. Üst tərəfdə 7, altda 1 dəliyi var.
Ölçüsü: uzunu-36,5sm.
EF inv. № 9088





***Zurna.*** Ağac. 9 dəliyi var.
Ölçüsü: uzunu: 31sm.
EF inv. № 9226



***Zurna***. Ağac. 9 dəliyi var.
Ölçüsü: uzunu-28,5sm.
EF inv. № 9227



***Zurna.*** Armud ağacı, mis, taxta və plastikatdır. 10 dəliyi var. Ölçüsü: uzunu: 36,5sm, ağız diam: 6sm. EF inv. № 7072



***Zurna.*** Armud ağacı, mis. 9 dəliyi var. Ölçüsü: uzunu: 34sm.
EF inv. № 4652



Tütək. Ağac, dəri. Üst tərəfdə 6, alt tərəfdə 1 dəliyi var. Ölçüsü: uzunu: 35sm. EF inv. № 4274







Zurna. Armud ağacı. 8 iri, arxada 1iri dəliyi var. Ölçüsü: uzunu: 27,5sm EF inv. № 8324



# Qanun

Qanun ellinizm mədəniyyətinin musiqi aləti hesab olunur. Bununla belə orta əsrlərdə qanun Osmanlı və Səfəvilərin mənəvi mədəniyyətinə sirayət edə bilmiş və günümüzə qədər Türkiyənin və Azərbaycanın musiqi mədəniyyətində, xüsusən xalq çalğı alətləri ansambllarının tərkibində istifadə edilməkdədir.





***Səntur***. Ağac, sədəf. 24 aşığı, 89 simi var. Üzərində "1872-ci il" tarixi qeyd olunub. Ölçüsü: 73 x 42, 27 x 35sm . EF inv. № 9612





***Qanun (Kanon).*** Müxtəlif növ ağac hissəciklərdən-ağcaqayın, qoz və s. sümük, sədəf, dəri. XIX əsrin ortaları. Qara ağacdan və fil sümüyündən hazırlanmış 74 aşığı, bağırsaqdan hazırlanmış 28 simi var. Ərəb əlifbası ilə hərflər yazılıb. Türkiyə. Osmanlı dövrü.Ölçüsü: uzunluğu: 96 sm, dm: 39sm, hünd: 4sm. EF inv. № 9596



# *Musiqi alətləri markalarda*

Azərbaycan musiqi alətlərinin təbliği məqsədilə markalarda onların təsvirinə müəyyən qədər yer verilmişdir. MATM-ın Köməkçi tarixi fənn materialları fondunda belə markaların bir neçə nümunəsi mühafizə olunur.




***Kamança, qaval və tütək əksi olan Azərbaycan markası.***
TKFMF inv. № ***248***




***Tar, zurna və balaban əksi olan Azərbaycan markası.***
2014-cü il. TKFMF inv. №582

***Dizayner:*** Lalə Məmmədova

***Fotoqraf:*** Mirnaibli Həsənoğlu